Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanlı gənclərin xaricdə təhsil proqramının yeni mərhələsi davam edir...

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

**Təhsilsiz inkişaf ola bilməz. Bu mənada elm, təhsil hər bir ölkənin inkişafının əsasını təşkil edir. Ümumiyyətlə, ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatlar, o cümlədən, təhsil sistemində müasir infrastrukturun yaradılması, məktəb tikintisinin geniş vüsət alması isə xüsusilə diqqətəlayiqdir.**



Hazırda bütün dünyada xalqların, dövlətlərin inkişafı ilə bağlı müasir çağırışlar, ilk növbədə, məhz təhsillə, cəmiyyətin intellektual inkişaf səviyyəsi ilə bağlıdır. Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatı XXI əsri "Təhsil əsri" elan edib.

Bu mənada məmnunluq hissi ilə deyə bilərik ki, müstəqil Azərbaycan təhsil sahəsində müasir dövrün hədəflərinə doğru inamla irəliləyir. Ölkəmizdə təhsilin inkişafı Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Prezident İlham Əliyevin ölkəmizdə təhsilin ən yüksək səviyyədə inkişaf etdirilməsi ilə bağlı dövlətin, cəmiyyətin qarşısına qoyduğu hədəflər reallığa əsaslanır. İlk növbədə, onu vurğulamaq lazımdır ki, Azərbaycan cəmiyyətinin, ələlxüsus da gənc nəslin təhsilə, innovasiyalara böyük marağı var. Ölkəmiz zəngin təhsil ənənələrinə, güclü intellektual və kadr potensialına malikdir. Uzun illər boyu yaranmış ənənələr yeni dövrün tələbləri nəzərə alınmaqla daha da inkişaf etdirilməlidir.

### Hökumət vətəndaşlar üçün belə imkan yaradırsa…

Sovet dönəmində SSRİ-dən kənara çıxmaq yox idi. İttifaqın ən nüfuzlu ali məktəbləri hansılar idisə, orada oxumaq mümkün olurdu. Ümummilli lider Heydər Əliyev hakimiyyətə gələndən sonra bu prosesdən uğurla istifadə etdi. Minlərlə azərbaycanlı onun sayəsində SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil aldı. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra fasilələrlə xaricdə təhsil üzrə dövlət proqramları işləndi, bu istiqamətdə uğurlarımız artdı. Yenidən Azərbaycan prezidentinin xaricdə təhsil üçün sərəncam imzalaması, tapşırıq verməsi o deməkdir ki, bu sahənin inkişafına ehtiyac var. Azərbaycan həmişə inkişaf etmiş dünya ölkələri ilə inteqrasiya şəraitindən istifadə edib. Bu gün də proses həyata keçirilir. Azərbaycan təhsilinin xarici təcrübəyə olan tələbatını yeni hazırlanacaq dövlət proqramının ödəyə biləcəyinə böyük ümid var.

Qeyd edək ki, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı bundan öncə 2007-2015-ci illərdə tətbiq edilib. Həmin proqramın yekunlaşmasından sonra yeni qanun qəbul edilməyib.

Bildirilir ki, birinci dövlət proqramı vasitəsilə təhsil alan tələbələrin əksəriyyətinin ölkəyə qayıdaraq, burada işləyir. Elm və təhsil naziri Emin Əmirullayev bildirib ki, yeni proqram hazırlanarkən xaricə oxumaq üçün gedən şəxslərin geri qayıtması ilə bağlı nüanslar da nəzərə alınıb.

Təbiidir ki, hökumət vətəndaşlar üçün belə imkan yaradırsa, həmin şəxslərin Azərbaycanın inkişafına töhfə vermələri də vacib məsələdir.

### Xaricdə təhsil bütün zamanlarda, bütün ölkələrdə prioritet olub

"Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın illik hədəf göstəricisində 400 təqaüdün verilməsini və magistratura səviyyəsi üzrə mövcud kvotada boş təqaüd yerlərinin olduğunu nəzərə alaraq yenidən sənəd qəbulu elan olundu.

Xatırladaq ki, Prezident İlham Əliyev 2022-ci il fevralın 28-də "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Dövlət Proqramının hədəf göstəricisi 2022-2026-cı illərdə, hər il 400 nəfərədək olmaqla, ümumilikdə isə 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilinin təmin edilməsidir. Dövlət Proqramı çərçivəsində xarici ali təhsil müəssisələrində təhsil yerlərinin ən azı 80 faizi ali təhsilin magistratura səviyyəsini əhatə edir.

Xaricdə təhsil bütün zamanlarda, bütün ölkələrdə prioritet olub. Çünki müəyyən sahələr, ixtisaslar üzrə mütəxəssislərin hazırlanması üçün bəzən ölkədəki potensial yetməyə bilər. Burada sadəcə insan kapitalından söhbət getmir. Eyni zamanda maddi texniki bazanın zənginliyi, laboratoriyaların yaradılması kimi məsələlərə bir çox ölkənin büdcəsi yetmir. Dünyanın reytinqli top universitetləri var ki, onların büdcəsi bir çox ölkənin büdcəsindən qat-qat çoxdur.

Bu şəkildə universitetlərin qurulması çox zaman mümkün olmadığına görə keçici bir həll yolu olaraq mütəxəssislərin hazırlanması məqsədilə xaricə tələbələr göndərilir. Ən istedadlı, bilikli və bacarıqlı tələbələri xaricdə təhsil üçün göndərmək lazımdır. Dövlətin xərclədiyi vəsaitin qarşılığını alması həmin kadrların ölkəyə qayıdaraq burada fəaliyyətini qurmasından asılıdır.

Xaricdə təhsil üzrə əvvəlki dövlət proqramında 3 mindən artıq azərbaycanlı gənc xaricdə təhsil aldı. Onların əhəmiyyətli bir hissəsi ölkəyə geri qayıtdı. Digər hissəsi isə dövlət qurumlarında uğurlu fəaliyyəti ilə seçilirlər. Bir neçə il öncə bu proqram mahiyyət olaraq yeniləndi. Belə ki, universitetlərin rəqabət qabiliyyətinin artırılması məqsədilə ikili diplom mexanizmi tətbiq edildi. Xaricdə doktorantura təhsili üçün gənclərin göndərilməsi həyata keçirilir. Həmin gənclər xaricə göndərilərkən öhdəlik götürürlər ki, qayıdıb həmin təhsil müəssisəsində işləyəcəklər.

Əminliklə demək olar ki, təhsilə qoyulan investisiya heç vaxt batmaz. Müəyyən vaxt sonra qat-qat artıq gəlirlə geri dönər.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**